Azad Azərbaycan



**Yaxşı bir el məsəli var: "Allahsız yerdə otur, böyüksüz yerdə oturma". Ulularımız isə deyib: "Ağıllı, müdrik böyüklərin nə qədər hörmətini saxlasan, özün üçün də böyüklük qazanarsan". Bax belə böyüklərdən, ağsaqqallardan, müdriklərdən biri, həmişə hörmətini saxladığımız, ədəbi mühitdə yaxşı tanınan, gözəl insan, ağsaqqal dostumuz olan rəhmətlik Xasay Cahangirov idi.**

Xasay müəllim tək öz ailəsinin, doğmalarının yox, həm də sumqayıtlı gənc yazarların ağsaqqalı idi desəm səhv etmərəm. Çünki özünün saflığı, əqidəsi, sözübütövlüyü ilə həmişə cavanların qəlbində özünün əbədi heykəlini ucaltmışdı. Çox təəssüf ki, bu gün belə insanlar çox azdır...

# Xasay Cahangirov yaradıcılığına bir baxış



...Yaxşı yadımdadır. 1981-ci ildə yaradıcılığa təzə-təzə başlamışdım. Şeirlər yazırdım. İstəyirdim ki, mənim bu şeirlərimi təcrübəli, ədəbiyyat aləmini yaxşı bilən şairlər oxuyub, mənə lazım olan məsləhətlər versin. Yaxın tanışlar mənə Xasay müəllimi məsləhət bildilər. Həmin vaxt Xasay Cahangirov "Sosialist Sumqayıtı" qəzetində ədəbiyyat üzrə şöbə müdiri işləyirdi. Qəzetdə onun özünün və başqa yazarların da şeirlərini maraqla oxuyurdum. O vaxtlar mən zavodda mühəndis işləyirdim. Bir gün yolumu həmin redaksiyadan saldım. Dedilər ki, Xasay müəllim 2-ci mərtəbədə oturur. Qalxdım 2-ci mərtəbəyə və gördüm ki, bir qapı açıqdır. Elə qapının ağzından Xasay müəllimi soruşdum. Dedi: "Düz gəlibsiniz". Sonra gəlməyimin səbəbini soruşdu. Mən ona özümün "cızma-qaralarımı" təqdim elədim. O, dedi: "Baxıb fikrimi deyərəm". Onunla bir qədər söhbət elədik. Gördüm ki, çox savadlı və həddindən artıq ziyalı insandır. Biz onunla səmimi söhbətdən sonra otağı tərk elədim. Bir neçə gündən sonra qəzetdə şeirlərimi və bu şeirlərə Xasay Gahangirovun uğurlu yol adlı yazısını oxuyub, çox sevindim. Redaksiyaya gedib, Xasay müəllimə öz təşəkkürümü bildirdim. Həmin vaxtdan düz 40 il keçib. İlk tanışlığımızdan sonra mən tez-tez Xasay müəllimlə görüşür və onun məsləhətlərini alırdım. Onun bu məsləhətləri məni yaradıclığa daha da həvəsləndirirdi və artıq kitablarım çap olunmağa başladı. Həmişə də onun qapısı açıq olurdu. Sonra başa düşdüm ki, qapının açıq olması obrazlı bir ifadədir. Xasay müəllim bununla demək istəyirdi ki, mənim ürək qapım hamı üçün, həmişə açıqdır. Ona görə də hamı həmin qapıdan çox asanlıqla keçə bilər və istədiyi məsləhəti ala bilərdi. Xasay Cahangirov tərif xoşlamayan insan idi. Onu tərif eləyənlərdən də xoşu gəlməzdi. Həmişə deyirdi ki, mən necəyəmsə elə də deyin. Məhz bunla bağlı da "Sən Allah tərifə öyrətmə məni" adlı maraqlı bir şeir də yazmışdı.

*Tərif çoxlarını yuxuya verib,*
*Çoxunu yatırıb iş başında o.*
*Çoxunun qəlbinə, gözünə girib.*
*Ovcuna tökülüb göz yaşında o.*
*Tərifin görmüşəm barmaqları var,*
*Ürəyə sancılmış qarmaqları var.*
*Təriflə aldadar bir uşaq məni,*
*Yolumdan azdırar bir yaltaq məni.*
*Tərifin yeriyən ayaqları var,*
*Harda gizlənsəm tapacaq məni.*
*Qohumdan, qardaşdan ayrı salacaq,*
*Sən Allah tərifə öyrətmə məni.*
*Mənliyim, varlığım heç olar mənim,*
*Ömrümün gözündən hörmətim düşər.*
*Sonra el içində qeybətim düşər,*
*Sən Allah, tərifə öyrətmə məni,*
*Yolumdan, kənara yönəltmə məni.*

Xasay müəllim öz mənəviyyatına, əqidəsinə görə həmişə insanlığını qoruyub. O, gənclər üçün nümunəvi olmağı, düzgün yaşamağı hər zaman, hər şeydən üstün tutub. O, həmişə deyirdi: "Sağlığında elə yaşamalısan ki, insanların qəlbinə yol tapa biləsən. İstər "rəhmət" sözünü, istərsə də "lənət" sözünü insan, özünün sağlığında qazanır. Çalışın əlinizdən gələni edin ki, "rəhmət" sözünü qazana biləsiniz".

İllər keçəndən sonra və biz yaşa dolduqca gördük ki, ustadımız düz deyib. İndi zaman elə dəyişib ki, "rəhmət" sözünü qazanmaq üçün gərək düzgün həyat yaşayasan. Verdiyin sözə əməl eləyəsən. Ona görə düz yaşamalısan ki, insanlıq zirvəsinə ucala biləsən. Əgər o zirvəyə qalxa bilibsənsə, gərək özünü həmin zirvədə qoruyub saxlamağı da bacarasan. Çünki tarix də bu cür insanları öz yaddaşında yaşadır. Məhz Xasay müəllimi yaşadığı illərdə biz də həmişə həmin zirvədə, ucalıqda görmüşük. Və bu gün də həmin dövrün gəncləri üçün o, həmin zirvədə, ucalıqda dayanıb. Həmişə də onu elə həmin zirvədə, ucalıqda təsəvvür eləyirik. Ən əsası isə biz ondan öz yaradıcılığımıza daha diqqətli, zəhmətkeş olmağı öyrənmişik. Xasay müəllimin redaksiyada işləri çox olmasına baxmayaraq, o, demək olar ki, hər gün şeir yazırdı. Onun "Sumqayıt" adlı poeması bu şəhərin bədii formada, nəzmə çəkilmiş tarixidir. Xasay müəllim həmin poemasında Sumqayıtın bir şəhər kimi ilk yarandığı gündən başlayaraq, göylərə meydan oxuduğu günlərə qədər bütün tarixçəsini, bu şəhər üçün böyük işlər görən insanların əməyini, onların həyatını həmin poemada bədii formada, yüksək səviyyədə qələmə alıb. Xasay Gahangirov özündən sonra 9 cildlik çox böyük bir xəzinə, külliyat qoyub gedib. Həyat yoldaşı Solmaz Cahangirova onun bu bədii əsərlərinin 2 cildini artıq çap etdirib. 3-cü cild mətbəədədir. O biri cildlər də çapa hazırlanır.

Bildiyimiz kimi hər bir insan üçün dünya onun boya-başa çatdığı evdən başlayır. Dünyanın başlanğıc nöqtəsi insanın doğulduğu ünvandır və həyata baxışı isə o evin pəncərəsidir. O pəncərədən boylananda ancaq yaxşı insanların əhatəsində olmalısan ki, özünü yaxşı hiss edəsən və ürəyin də yaxşını görsün. Axmaq adamlar nə qədər insanların yaddaşında qalarsa o insanlar həyatda heç zaman rahat yaşaya bilməz. Həmin axmaqların hərəkətləri yaxşı adamlara rahatlıq verməz.

**Sumqayıtlılara hər zaman doğma olan bir insan kimi minlərlə insanların qəlbinə yol tapan xeyirxah insan və öz dünyasının asimanı olan dəyərli şair Xasay Cahangirov haqqında şeir dili ilə belə deyə bilərəm.**

*Keçilən yollara saldıqca nəzər,*
*Xəyal uzaqlara dolaşıb gəzər.*
*Yaxşılıq ömrünü nur ilə bəzər,*
*Həyatın örnəkdi, nişandı qardaş.*
*El sənə göstərdi hörmət, ehtiram,*
*Səndən xoş söhbətlər açır hər adam.*
*Açılan o səhər, düşən bu axşam,*
*Mənasız keçməyib amandı qardaş.*

Xasay Cahangirovun çox dəyərli və həmişə ona sadiq həyat yoldaşı var, Solmaz xanım. Mən onu ilk dəfə görəndə necə də səmimi, nur simalı, mələk



xasiyyətli bir xanım olduğunu gördüm. Evlərində çox olmuşuq. O, evinə gələn qonağı yüksək səviyyədə qarşılayır. Xasay müəllimə yaraşan əsl ziyalıdır. Və həmişə görürdük ki, gözəl insan olan Xasay müəllimin elə özünə layiq bir xanımdır. Həm də Xasay müəllimə arxa-dayaqdır. Onun yaradıcılığına təkan verən bir insandır. O, Xasay müəllimin son dəqiqəsinə kimi onun qulluğunda yüksək səviyyədə durdu. Qoy Ulu Tanrı onun canını sağlam eləsin. Sağlamlıq həmişə bu gözəl xanımın yol-yoldaşı olsun ki, Xasay Cahangirovun külliyatını çap etdirə bilsin.

Artıq bir müddətdir ki, Xasay müəllim aramızda yoxdur. Qoy ruhu şad olsun. Onu yaxından tanıyanlar, onunla təmasda olanlar heç vaxt Xasay müəllimi yaddan çıxarmır. Tez-tez onun məzarını ziyarət edirlər. Hər dəfə biz Xasay müəllimin qəbrini ziyarət edəndə deyirik: "Rahat yat, dəyərli şairimiz, böyük ustadımız. Həmişə qəlbimizdə yaşayırsan. Yaxşı ki, sənin ömür-gün yoldaşın olan Solmaz xanım kimi bizim bir bacımız var. O, sənin bütün yaradıcılığını toplayıb çap etdirir və sənin həmişə yazılı ədəbiyyatda yaşamağına çalışır. İnanırıq ki, sən həmişə yaşayacaqsan və Azərbaycan ədəbiyyatında layiqli yerdə qalacaqsan".

Xasay Cahangirov 1930-cu ilin mart ayının 21-də Novruz bayramı günü Qubadlı rayonunun Məzrə kəndində doğulmuşdu. Amma həyatının çox böyük hissəsini Sumqayıtda yaşasa da həmişə Qubadlıya, Qarabağa bağlı insan idi. Həmin yerlərin erməni gavurlarının işğalı altında qalmasını heç cürə qəbul eləyə bilmirdi. Bununla bağlı çoxlu şeirləri də var. Çox əfsus ki, bizim ustadımız qələbə günlərini görə bilmədi. O, 2017-ci ilin avqust ayının 20-də haqq dünyasına qovuşdu.

**Böyük Tanrının qüdrətinə şükür ki, artıq həmin yerlərimiz Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən erməni faşistlərindən təmizlənib. Biz inanırıq ki, artıq Xasay müəllimin ruhu Qarabağda düşməndən azad olunmuş torpaqlarımızdadır. Tezliklə, orada yenidən evlər tikiləcək və Qarabağda həyat əvvəlki kimi qaynayacaq. Bunu görən Xasay müəllimin ruhu da sevinəcək. Mən buna qəti əminəm...**

Əli RAFİQ